# ABZASLARIN NÖVLƏRİ

İzahedici, mühakimə xarakterli mətnlərdəki abzasları dörd növə ayırmaq olar:

- Giriş;
- İzahedici/Əsaslandırıcı;
- Keçid;
- Ümumiləşdirici.

Giriş abzası mətnin ilk abzasıdır, giriş hissəsini təşkil edir və burada, adətən, aşağıdakı məlumatlar verilir:

- mövzu və problem;
- mətnin əsas ideyası;
- mövzunun əhatə səviyyəsi;
- müəllifin mövzuya münasibəti və s.

**Giriş abzası** tematik, problematik və ideya cümlələrindən təşkil edilir. Tematik cümlə mətnin ümumi mövzusunu (və ya mövzunun bir qismini) təqdim edir. Tematik cümlə abzasın istənilən yerində verilə bilər, lakin o, adətən, birinci cümlə olaraq verilir – bunun üçün tutarlı səbəb var: bu cümlə yazı prosesində müəllif, oxu prosesində oxucu üçün məqsədi təyin edir. Tematik (mövzu) cümləni müəyyən etdiyiniz zaman mütləq altından xətt çəkin ki, sonradan mətni təkrar nəzərdən keçirdikdə də nəzəri cəlb etsin.

Giriş abzasında mövzu ilə bağlı problem də əksini tapır. Bu, problemin təsviri şəklində və ya mövzu ilə bağlı bir, yaxud bir neçə sual verilməklə ifadə oluna bilər. Girişdə həmçinin əsaslandırılmış fikir – tezis (ideya) verilir. Mətndə bir giriş abzası olarsa, ideya cümləsinə, adətən, abzasın sonunda təsadüf olunur. Mətnin girişi bir neçə abzasdan ibarətdirsə, ideya ayrıca bir abzasda tezis şəklində verilməklə yanaşı, geniş izah oluna da bilər.

Mətnin əsas hissəsi **izahedici abzaslardan** ibarət olur və girişdə verilmiş əsas fikri isbat etməyə xidmət edir. Bu abzasların hər biri kiçik bir mətn strukturuna malikdir. Burada mətnin əsas fikri ilə əlaqəli köməkçi fikirlər verilir və onları isbat etmək üçün

fakt, nümunə, hadisə və s. təfərrüatlardan istifadə olunur. Hər bir abzasın sonu yekunlaşdırıcı cümlə ilə bitir.

**Keçid abzaslar**, adətən, qısa olur; onların vahid funksiyası abzaslar arasında əlaqə yaratmaqla fəslin və ya bölmənin növbəti ideyası üçün zəmin yaratmaqdır.

Keçid «köhnə abzasla» «yeni abzas» arasındakı əlaqədir. Abzaslar arasında səmərəli keçidlər abzasların bir-biri ilə məntiqi əlaqələnməsini təmin edir. Ümumilikdə, *abzaslararası keçid* oxucuya bir abzasdan digər abzasa və ya bir fikirdən digər fikrə keçməyə kömək edən cümlə və yaxud bütöv abzasdır. Keçid cümləsi, adətən, abzasın birinci cümləsi olur, bəzən əvvəlki abzasın son cümləsi də keçid rolunu oynaya bilir. Müəllif mövcud iki abzası əlaqələndirmək istədikdə ayrıca keçid abzasından da istifadə edə bilir.

**Ümumiləşdirici abzaslar**da, adətən, fəslin və ya bölmənin əsas ideyası bir daha nəzərə çatdırılır. Müəllif həmçinin mətnin əsas hissəsindəki fakt və hadisələrdən çıxarılan qənaətlərini verə bilər. Ümumiləşdirici abzas mətnin, bölmənin, fəsl və yarımfəslin sonunda verilir. Bəzi keçid abzaslar var ki, əvvəlki abzaslardakı fikirləri ümumiləşdirir, bu abzaslarla ümumiləşdirici abzası eyniləşdirmək olmaz. Onlar arasındak fərq bundan ibarətdir ki, ümumiləşdirmə aparılan keçid abzaslarda yeni fikir də qoyulmaqla növbəti abzasa zəmin yaradılır. Ümumiləşdirici abzasda, adətən, yeni fikrə yol verilmir.

**Nəticə necə yazılır?**

*1. Tezisi parafraz edin.*

Səmərəli nəticə mətnin məqsədi barədə xatırlatmaqla oxucunu mətndəki əsas fikrə qaytarır. Tezisi sözbəsöz təkrarlamaqdan çəkinin. Əsas fikrinizi saxlamaqla arqumentlərinizi yüngülcə parafraz edin.

*2. Dəstəklənən fikirləri təkrar edin.*

Tezisinizi parafraz etməklə yanaşı, siz mətn boyunca onu dəstəkləyən fikirləri də təkrarlamalısınız. Bütün arqumentləri sadalamaqdansa, onları xülasələşdirin.

*3. Giriş müddəaları ilə nəticə arasında əlaqə yaradın.*

Əldə etdiyiniz qənaətlər haqqında oxucuda tam təsəvvür yaradaraq girişdə qoyduğunuz mövzunu da bir daha xatırlatmaq faydalıdır.

*4. Təəssürat yaradın.*

Sizin nəticəniz oxucuda bir qənaət yaratmalı, suallar doğurmalı, gələcək fəaliyyətə təşviq etməlidir. Sizin arqumentlərinizin nəticəsi nədir? Bu niyə kimisə maraqlandırmalıdır/düşündürməlidir? Siz bu qism sualları cavablandırmalı və öz auditoriyanıza düşünmək üçün qida verməlisiniz.

Göründüyü kimi, abzasların hər bir növünün öz xüsusi məzmunu var. Onları qısaca aşağıdakı kimi ümumiləşdirə bilərik:

**Giriş abzaslar**: predmet, mövzu, problem və qarşıya qoyulmuş əsas fikir, arqumentlər;

**İzahedici abzaslar**: arqumentlərin əsaslandığı fakt, hadisə, nümunə, dəstəkləyici fikirlər və s.;

**Keçid abzaslar**: ikinci dərəcəli mövzu və fikirlər, problematik suallar;

**Ümumiləşdirici abzaslar**: əldə edilmiş qənaət, əsas ideyanın bir daha vurğulanması.

**Qeyd:** Unutmaq olmaz ki, mətnin vahid bir struktur modeli yoxdur. İzahedici, mühakimə xarakterli mətnlər də tamamilə fərqli kompozisiyalarda qurula bilər: hadisə ilə başlaya bilər; geniş sitatlar, istinadlardan istifadə olunar; faktalar təqdim edilər və s. Şairdlərin mətnin klassik strukturu ilə tanışlığının əsas məqsədi akademik mətnlərin strukturunu anlamaları və bu strukturda mətn yazmaq bacarıqlarının əsasının qoyulmasıdır. Abzasların məqsədini, rolunu aydınlaşdıra bilmək şagirdin həmçinin müxtəlif kompozisiyalı mətnləri anlama bacarığını inkişaf etdirir.

**Könül Aydın Nəhmətova**
**Filologiya üzrə fəlsəfə doktoru**
**ARTİ MDPİM-in Əlavə təhsilin məzmunu şöbəsinin müdiri**